Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrası

**Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının yaranma tarixi.**

Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrası ADPU-nun Elmi Şurasının 9 iyul 2019-cu il tarixli qərarı ilə "Ümumi tarix" və "Türk və Şərqi Avropa xalqları tarixi və tarixin tədrisi metodikası" kafedralarının birləşdirilməsi nəticəsində yaradılmışdır. Kafedra müdiri vəzifəsi əvvəlcə Tarix və coğrafiya fakültəsinin dekanı dos.Ş.M.Pənahova həvalə edilmişdir. 2019-cu ilin noyabr ayından isə kafedraya tarix elmləri doktoru, dosent Sevinc İsrafil qızı Əliyeva rəhbərlik edir.

Ümumi tarix kafedrası 1931-cü ildə Qərb tarixi (müdir prof. P.P.Fridolin) və Yaxın Şərq tarixi (müdir prof.A.S.Bukşpan) kafedralarının bazası əsasında yaradılmışdır. Kafedraya 1937/38-ci tədris ilində dos.Əşrəf Quliyev, sonra isə Kərəm Əbdürrəhmanov rəhbərlik etmişdir. 1939-1941 və 1945-1953-cü illərdə Qədim və orta əsrlər tarixi adlandırılan bu kafedra dos. Ə.S.Sumbatzadənin rəhbərliyi ilə fəaliyyət göstərmişdir. Sonrakı illərdə kafedraya dos. Məmməd Şıxlı (1959-1971) və prof.Yusif Yusifov (1971-1998) rəhbərlik etmişdir. 1998-2019-cu illərdə kafedraya AMEA-nın müxbir üzvü, prof. Vəli Əliyev rəhbərlik etmişdir. Türk, Şərqi Avropa, Qafqaz xaqları tarixi və tarixin tədrisi metodikası kafedrası sovet hakimiyyəti dövründə fəaliyyət göstərən SSRİ tarixi kafedrasının bazası əsasında 1992-ci ildə təşkil olunmuşdur. SSRİ tarixi kafedrasına 1930-1937-ci illərdə prof.B.N.Tixomirov, 1938-1941-ci illərdə dos.Ə.B.Şükürzadə, 1943-1945-ci illərdə dos.C.Ə.Rəhimov, 1945-1947-ci illərdə prof.Cəfər İbrahimov, 1975-1981-ci illərdə prof.İsmayıl Həsənov, 1981-1992-ci illərdə prof. Şükür Sadıqov rəhbərlik etmişdir. Türk, Şərqi Avropa, Qafqaz xalqları tarixi və tarixin tədrisi metodikası kafedrasının fəaliyyətinin 1992-1994-cü illərdəki ilk dövründə kafedraya prof. Ş.Ə.Sadıqov, 1994-1999-cu illərdə prof. Dərgah Qüdrətov rəhbərlik etmişdir. 1999-2011-ci illərdə prof.O.B.Sultanov, 2011-2019-cu illərdə dos.Rəcəb Əliyev rəhbərlik etmişdir.

**Kafedrada hazırda çalışanların son 6 ildə nəşr olunmuş dərslik və dərs vəsaitləri.**

Kafedra əməkdaşlarının son beş ildə 10 dərslik, 6 dərs vəsaiti, 3 monoqrafiyaları nəşr olunmuşdur. Məsələn, kafedra əməkdaşlarından S.Bəhramovun "Həyat Bilgisi " (8 –ci sinif. 2015), "Azərbaycan Tarixi" (8-ci sinif 2015), "Ümumi tarix" (9-cu sinif 2016) dərslikləri, "Azərbcaycan tarixi" ( 11-ci sinif. 2018), "Həyat bilgisi" (2018) , M.Əmrahov və P.Səfərovun "Türk xaqları tarixi", M.Əmrahovun Azərbaycan tarixi (1939-1945-ci illər) (2017), Ş. Nuruzadənin "Asiya və Afrika ölkələri tarixi" ali məktəb dərslikləri, M.Əmirov "Ümumtəhsil məktərlərində tarixin fəal interaktiv təlim metodikası (2014), "Tarix dərslərində şagirdlərdə emi dünyagörüşün formalaşdırılması ", Ə.Əhmədov "Avropa və Amerika ölkələrinin yeni tarixi" (2017) adlı dərs vəsaitləri və s. çap olunmuşdur. S.Əliyevanın 3 monoqrafiyası çap olunub: 1.Азербайджанская Демократическая Республика и государственные образования Северного Кавказа (1918-1920). 2. Взаимоотношения Азербайджана и народов Северного Кавказа (19-нач.20 в). 3.Татары в Азербайджане. Монография. Казань, 2018. 2020-2021-ci tədris ilində isə p.ü.f.d.,b/m.Musayev Dəyanətin "Методика преподавания истории(2020)", p.ü.f.d.,b/m. İsayeva Təranənin "Ümumtəhsil məktəblərində Azərbaycan tarixinin tədrisində mətn üzərində işin təşkili"(2020), müəl.Bəhrəmova Sevilin "Heydər Əliyev və Azərbaycan Respublikasında din siyasəti"(2020) adlı kitabları, t.ü.e.d., dos.Sevinc Əliyevanın isə "Noqay Türkləri" (2021) adlı dərs vəsaiti nəşr olunmuşdur.

Eyni zamanda kafedra əməkdaşlarının son 5 ildə çoxlu sayda məqalələri respublika və beynəlxalq konfranslarda, xarici və yerli elmi jurnallarda nəşr olunmuşdur.

Həmçinin son beş ildə kafedra əməkdaşlarından Qurbanova Şəhla Müzəffər qızı "Keçmiş Sovet respublikaları məkanında ABŞ-Rusiya rəqabəti" adlı dissertasiyanı müdafiə etmiş və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır (27.01.2015).

**Kafedrada hazırda fəaliyyət göstərən professor-müəllim heyətinin sayı (elmlər doktoru, professor, fəlsəfə doktoru, dosent, baş müəllim, müəllim)**

Hazırda kafedrada 32 nəfər müəllim ştatda (2 nəfər elmlər doktoru, professor- Oqtay Sultanov, Əmirov Mübariz , 3 nəfər elmlər doktoru, dosent- Sevinc Əliyeva, Sevinc Seyidova, Məmmədova Şəlalə, 12 nəfər tarix üzrə fəlsəfə doktoru, dosent- Bəşirov Qabil, Əhmədov Ərrəhman, Əliyev Rəcəb, Hacinskaya Naidə, Mehdiyeva Aytən, Məmmədova Səidə, Nuruzadə Şubay, Piriyeva Afaq, Səfərov Pərviz, İsayeva Təranə, Musayev Dəyanət, Qurbanova Şəhla, 2 nəfər fəlsəfə doktoru, baş müəllim-, Cəfərov Taleh, Həziyeva Səbinə, 4 nəfər fəlsəfə doktoru, müəllim- Ağayev Mehman, Sevil Bəhrəmova, Günel Buludzadə, Rameş Rzayev, 2 nəfər baş müəllim-İndira Ələskərzadə, İsaməddin Musayev, 7 nəfər müəllim- Nailə Abdurəhmanova, Günel Bababəyli-Rzayeva , Sevinc Əyyubova, Raminə Hüseyinli, Qocayeva Ləman,

Axundova Vüsalə, Əliəşrəf Abdulrazaqov, 5 nəfər müəllim əvəzçi (2 nəfər fəlsəfə doktoru, dosent- Kərimov Bəhman, Əliyev Elvin, 2 nəfər fəlsəfə doktoru, baş müəllim- Qafqazlı Gülər, Mustafayev Laçın, 1 nəfər doktorant İsmayılova Turanə), 3 nəfər tədris köməkçi heyəti kimi (2 böyük laborant -Elnarə Məmmədova, Leyla Orucova və 1 laborant -Hicran Nadirova) fəaliyyət göstərirlər.

**2011-2022-ci illərdə fakültə əməkdaşlarından fəxri ad, orden və medal alanlar: (Prezidentin sərəncamı ilə) (adı, soyadı, mükafatı aldığı il)**

Kafedramızın professoru, tarix üzrə elmlər doktoru Sultanov Oqtay Balaqədəş oğlu “Tərəqqi” medalı (26.12.2006) və “Əməkdar müəllim” (18.04.2012) fəxri adına layiq görülmüşdür.

Universitetimizin 100 illik yubileyi ilə bağlı olaraq Prezidentimiz yeni sərəncam imzaladı və həmin sərəncama əsasən kafedramızın aşağıda adları göstərilən müəllimləri mükafatlandırılıb:

1.Prof.OqtaySultanov-3cüdərəcəli"Əmək"ordeni

2.Dos.RəcəbƏliyev-"Tərəqqi"ordeni

3.Dos.Pərviz Səfərov- “Əməkdar müəllim”

Eyni zamanda Təhsil Nazirliyi tərəfindən kafedramızın müdiri t.ü.e.d.,dos.Sevinc Əliyeva və kafedramızın professoru p.ü.e.d.Mübariz Əmirov "qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmişdilər.

Kafedraya son 6 tədris ilində qəbul olmuş magistr sayı (ixtisaslar üzrə)

Kafedra kadr hazırlığı ilə bağlı məsələləri diqqət mərkəzində saxlayır. Belə ki, 2015-2016-cı tədris ilində 28, 2016-2017-ci tədris ilində 24, 2017-2018-ci tədris ilində 33, 2018-2019-cu tədris ilində 29, 2019-2020-ci tədris ilində 19, 2020-2021-ci tədris ilində isə 24 nəfər, 2021-2022-ci tədris ilində 14, 2022-2023-cü tədris ilində isə 8 nəfər magistr tarix fənninin tədrisi metodikası ixtisası üzrə qəbul olmuşdur.

Son altı ildə 3 nəfər fəlsəfə doktoru və 1 nəfər elmlər doktoru proqramı üzrə təhsillərini başa vurmuşlar.

2022-2023-cü tədris ilində kafedraya fəlsəfə doktoru proqramı üzrə 1 nəfər doktorant-Rüstəmova Xədicə qəbul olmuşdur. Elmlər doktoru proqramı üzrə isə 1 nəfər doktorant- Musayev Dəyanət Musa oğlunun isə (sonuncu il) kafedranın nəzdində elmi tədqiqat işlərini davam etdirirlər.